# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №08 (48) • 28.02.2011

AzadliqRadiosu.az®

P.Semnebi: **«Eynulla Fətullayevin məsələsi gündəliyimizdədir»** səh.3

**Gömrükdə «bir pəncərə» prinsipi tətbiq edilir** səh.4

**7 əsgər nədən öldü?** səh.5

М.Горбачев: **"Я старался везде избегать крови...** səh.7

YAP-çı deputat: **«Yüksək vəzifəlilər də cəzalandırılacaqlar»** səh.9

**Artur Rasizadənin ana dili problemi** səh.13

**Obama Qəddafiyə qarşı sanksiyaları imzalayıb** səh.14

**Dünya ölkələrinin etiraz potensialı siyahısı** səh.15

## «Torpağı satır, pulunu qoyur cibinə...»



səh.10

Sakinlər deyir ki, bələdiyyə sədri Mina Quliyeva müqəddəs ocaqlardan yığılan nəzir-niyazı da özünə götürür

## ABŞ dövlət katibinin müavini Bakıda nələri dedi?

*"Biz son antikorrupsiya təşəbbüslərini çox alqışlayırıq və hesab edirik ki, bu, müsbət təşəbbüsdür. Biz Azərbaycanda güclü vətəndaş cəmiyyətinin yaradılmasında maraqlıyıq. İqtisadiyyat təkcə enerji resurslarına əsaslanmamalı, iqtisadiyyat şaxələndirilməlidir. Azərbaycan vətəndaşları üçün bu şərait yaradılmalıdır».*

səh.8




**Sabirabad və Saatlı sakinləri ilə polis arasında qarşıdurma** səh.2

**Посол Брайза - о беседе с Алиевым** səh.7

**Ərəb inqilabları Azərbaycana milyardlarla dollar xeyir verir** səh.10

# Sabirabad və Saatlı sakinləri ilə polis arasında qarşıdurma




**Fevralın 24-də Sabirabad və Saatlı rayonunun bir qrup sakinini aksiya keçirməyə, demələrinə görə, dövlət məmurlarının hələ də onlara bir gün ağlamaması vadar edib. Əllərində keçmiş və indiki prezidentlər - Heydər Əliyevlə İlham Əliyevin şəkillərini tutan aksiya iştirakçıları polisin sərt davranışı ilə üzləşdilər.**

**"TERRORA VƏ KORRUPSİYAYA YOX DEYİRİK!"**

Ötən ilin Kür daşqınlarından 9 ay ötməsinə baxmayaraq, aksiya iştirakçıları kompensasiya ala bilməyib, ya da cüzi məbləğlə kifayətlənməli olublar. Bəzilərinin isə şikayəti başqadır. Evləri ziyan görməsə də, demələrinə görə onları məcbur edirlər ki, öz ata-baba yurdlarından yeni salınmış şəraitsiz qəsəbələrə köçsünlər. Elə buna görədir ki, bu Kür daşqını qurbanları "Terrora və korrupsiyaya yox deyirik!" şüarı altında icazəsiz aksiya keçirməyə cəhd etdi:

**"BİR İLDİR KƏNDİ SU APARIB, KÜÇƏDƏ QALIRAM..."**

Səhər saat 10-dan yağışlı hava şəraitinə, palçıqlı-zığlı yollara baxmayaraq, 5-6 kəndin əhalisi Saatlının Novruzlu kəndi yaxınlığındakı asma körpünün yaxınlığında toplaşmağa başladı. Aksiyaçıların sayı artdıqca əraziyə axışan polislərin sayında da artım hiss olunurdu. Təxminən 60-a yaxın aksiya iştirakçısının qarşısında elə bir o qədər, bəlkə də daha çox polis toplaşdı. Kəndlilər öz problemlərindən danışmağa başlamışdılar ki, polis dağılışmaq əmri verdi.

**"POLİSLƏR MƏNƏ 50 DUBİNKA VURUB"**

- 50 dənə dubinka vurublar mənə, boynuma, bədənimə, hər yerimə. Deyir niyə haqqınızı, hüququnuzu tələb edirsiniz. Bunlar kimlərə qulluq edir, biz başa düşə bilmirik.

Asma körpü boyunca irəlidə aksiya iştirakçıları, arxalarında isə onları qarşıya-kəndə doğru itələyən polislər arasında bir qədər sonra insident yaşandı. Aksiya iştirakçıları polisə, polis isə onlara palçıq, daş atdı.



Aksiya vaxtı ərazidə olan Saatlı və Sabirabad rayon polis şöbələrinin rəisləri jurnalistlərə təzyiqin olduğunu, aksiya iştirakçılarının döyüldüyünü təkzib etsələr də, bütün bunlar bizim gözümüzdən yayınmadı. Polis üstəlik aksiyanın məhz icazəsiz olduğu üçün dağıdıldığını bildirirdi. Saatlı Rayon Polis Şöbəsinin rəisi Ağəli Xəlilov: *"Burda 6-7 kəndin əhalisi toplanıb, cəmi 30-35 nəfərdir. Onlarla profilaktik söhbət aparıldı, sakitcə dağılışıb gedirlər. Heç bir qanun pozuntusu aşkar edilmədi. Onların aksiyası razılaşdırılmadığı üçün icazə verilmədi. Və burda dövlət əhəmiyyətli – Araz çayının üzərindən keçən körpüdür, o körpüyə olmaz yaxınlaşsınlar".*

Dəfələrlə Prezident Administrasiyası, Nazirlər Kabineti və digər rəsmi orqanlara qəbula düşməyən kəndlilər prezidentə bu aksiyadaca öz müraciətlərini səsləndirməyə imkan tapdılar:

**NÖVBƏTİ AKSİYA PREZİDENT ADMİNİSTRASİYASI QARŞISINDA...**

*"Çox güman ki, yaxın günlərdə bizim bu aksiyamız böyük şəkildə Prezident Administrasiyasının qarşısında keçiriləcək. Nəticə əldə olunmayınca bizim camaat toxtamayacaq. Ona görə biz dəqiq qərara gəlmişik və hamı ayılıb ki, bizim camaat yüz faiz terrora məruz qalıb".*

Aksiyaya gələn "Kür" Vətəndaş Cəmiyyəti Qərargahının əlaqələndiricisi Oqtay Gülalıyev də daşqınlar başlanandan bu yana insanlara lazımi yardım edilmədiyini bildirdi: *"Ən yüksək məbləğ 1600 manat birdəfəlik yardım nəzərdə tutulur, Birincisi, bu məbləğ çox kiçikdir, digər tərəfdən, hətta bunun özü belə insanlara verilməyib".*

- Mən 200 manat pul almışam.

-3 uşağım məktəbə getməlidir, imkan daxilində onları məktəbə göndərə bilmirəm.

- 1 hektar bostanım batıb, yoncam, taxılım hamısı batdı. Cəmi adambaşına 200 manat verilib. Bu 9 ayda biz onunla necə dolanaq?

*Bunları da aksiyaya gələn insanlar deyirdi.*

**"BİZİM EVLƏRİ BİR QRUP MƏMUR BASIB"**

Sabirabad rayonunun Qasımbəyli kənd icra nümayəndəsi Babaxan Ənnağıyev isə deyilənləri təkzib etdi və yaxın günlərdə kompensasiyaların verilməsinin tamamlanacağını dedi:

*- Ödənilib, bir-iki ailə qalıb, onlara da ödəniləcək.*



**- Bəs niyə bu vaxta qədər gecikdirilib?**

*- Fövqəladə halların komissiyaları var, o komissiyalar dəqiqləşdirə bilmirlər ki, kiminki bərkitmə, kiminki təmirdir, kiminki qəzalıdır. Bunlar ayrı-ayrı kompensasiyadır.*

Aksiya zamanı 4 nəfər saxlanmışdı. Günün sonunda isə onların sərbəst buraxıldığı məlum oldu.

***Sevinc Hüseynzadə***

# Piter Semnebi: «Eynulla Fətullayevin məsələsi gündəliyimizdədir»



Piter Semnebi

**«Korrupsiya ilə mübarizə proqramının işə düşməsi əhəmiyyətlidir. Azərbaycana səfərim zamanı bu məsələ də müzakirə olunub. İslahatlar mərhələsində olan ölkədə korrupsiyanı məhdudlaşdırmaq üçün bu kimi məsələləri gündəlikdə saxlamaq çox vacibdir». Bunu fevralın 26-da Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi deyib. P.Semnebinin xüsusi nümayəndə kimi mandatı fevralın 28-də başa çatır. O, 2006-cı ildən bu postda idi.**

Semnebi son 5 ili qiymətləndirərkən bildirib ki, bu dövr ərzində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında çox kiçik irəliləyiş olub. AB rəsmisi qeyd edib ki, hazırda tərəflər sürətlə silahlanır və hər hansı insident yaşanarsa, bu, təhlükəli ola bilər: *«Bu sahədə səylərin artırılmasına ehtiyac var».*

P. Semnebi Azərbaycanda siyasi və iqtisadi islahatlara da toxunub. O bildirib ki, Azərbaycanla Avropa Birliyi arasında assosiasiya sazişi üzrə danışıqlar islahatlar üçün impuls verəcək.

**EYNULLA FƏTULLAYEVİN MƏSƏLƏSİ GÜNDƏLİYİMİZDƏDİR**

P. Semnebi deyib ki, Azərbaycan rəhbərliyi ilə məhbus jurnalist Eynulla Fətullayev barədə də danışıb: *«Mətbuat azadlığı sahəsində bəzi narahatlıqlar var ki, Avropa Birliyi bu istiqamətdə işini davam etdirəcək. Eynulla Fətullayevin məhkəmə işi də gündəliyimizdə duran məsələlərdəndir. Bu səfərim zamanı mən bu məsələni yerli hakimiyyət qurumları ilə müzakirə etmişəm».*

AB-nin Azərbaycandakı ofisinin rəhbəri Rolan Kobia isə bildirib ki, P. Semnebinin xüsusi nümayəndə kimi mandatı başa çatsa da, AB Cənubi Qafqazda iştirakını azaltmayacaq.

***Sevinc Hüseynzadə***

# Cabbar Savalanlının daha bir şikayəti təmin olunmadı



**Fevralın 25-də Sumqayıt Şəhər Məhkəməsində AXCP Gənclər Təş - kilatının üzvü Cabbar Savalanlının tutulma vaxtı yol verilmiş qanun pozuntuları üzrə məhkəmə prosesi baş tutub.**

Vəkil Anar Qasımovun AzadlıqRadiosuna verdiyi məlumata görə, qanun pozuntuları ilə bağlı verdikləri şikayət təmin olunmayıb: *«Biz məhkəmədən çıxandan sonra xəbər tutduq ki, 5 nəfəri tutublar. Bizə də təzyiq göstərilir. Vəkillər mətbuata müsahibə verərkən müdaxilə olundu. Məhkəmənin əhatəsinə heç bir adamı yaxın buraxmayıblar. Hətta mən məhkəməyə daxil olarkən yol polisləri tərəfindən içəri daxil olmağıma icazə verilmədi. Uzun müzakirə etdikdən və vəkil olduğumu biləndən sonra içəri daxil ola bildim».*

AXCP Gənclər Təşkilatının üzvü Cabbar Savalanlının məhkəməsi önündə saxlanılan müxalifətçiləri polis yaxınlığdakı mikroavtobusa mindirsə də, sürücü maşını sürməkdən imtina edib. Sürücü mikroavtobusun açarını da polislərə verməyib. Polislərin göstərişlərinə əməl etməyən sürücü bildirib ki, o, xəstə oğlunun dalınca gedir və avtobusdakıları harasa aparmaq imkanı yoxdur. Göstərişə əməl etmədiyə görə sürücü və aksiya keçirən dörd AXCP üzvü mikroavtobusdan düşürdülərək polis maşınları ilə Sumqayıt şəhər 3-cü polis bölməsinə aparılıb.

Axşam saatlarında sürücü və partiya üzvləri xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıblar.

***Gülnar Axundova***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Qorxmaz Əsgərov: **Diktaturaları yaşadan miflər**



**Müsəlmanlar Qərbə demokratiya dərsi keçir?**



Hüseynbala Səlimov: **Siyasətdən vaxtında getmək məharəti**



İlhamın neft bloqu: **Azərbaycanın neft xərcləmələri**



**Çeçenistanda qadınlar işə başıbağlı gələcək**

# Gömrükdə «bir pəncərə» prinsipi tətbiq edilir



**Prezident İlham Əliyev Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və gömrükdə prosedurların sadələşdirilməsi haqqında fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 25 faizi gömrük işçilərinin aylıq vəzifə maaşlarına əlavə edilsin. Fərmanda eyni zamanda tapşırılır ki, idxal edilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi, dövlət qeydiyyatının aparılması və başqa sənədləşdirmə zamanı «bir pəncərə» prinsipi tətbiq edilsin. Müvafiq qurumlar sadələşdirilməni üç ay müddətində təmin etməlidirlər.
Üstəlik fərmana əsasən, bütün gömrük ödənişləri yalnız bank və ya plastik kart vasitəsilə alınmalıdır. Bundan başqa da gömrük orqanlarına müraciət edən şəxslərin qəbul edilməsi ardıcıllığının müəyyən olunması üçün elektron idarəetmə sistemi («elektron növbə») tətbiq edilməlidir. Azərbaycan ictimai fəallar gömrük komitəsinin azad biznesə mane olan və ən korrupsiyalaşmış dövlət təşkilatı olduğunu deyirlər. Prezident iki həftə əvvəl yol polisi haqqında da eyni məzmunda fərman verib.Yanvarın sonundan Azərbaycanda rəsmi səviyyədə antikorrupsiya kampaniyası gedir.

# Nazir əhaliyə göstərilən tibbi yardımın araşdırılması ilə bağlı əmr imzalayıb

Səhiyyə naziri Oqtay Şirəliyev əhaliyə tibbi yardımın göstərilməsi ilə bağlı yaranan mübahisəli məsələlərin yerlərdə araşdırılması məqsədi ilə əmr imzalayıb. Əmrə əsasən, Bakı şəhərində yerləşən tibb müəssisələrində Səhiyyə Nazirliyinin mütəxəssislərinin təhkimçiliyi tətbiq olunub. Təhkim olunmuş mütəxəssislər, şənbə günü də daxil olmaqla, hər iş günü saat 9:00-dan 15:00-dək fəaliyyət göstərəcəklər.



Oqtay Şirəliyev

# «Rüşvətxor olsaydım, belə dilənçi vəziyyətində yaşamazdım»



**Bu günlərdə BDU-da keçirilən iclasda rektor Abel Məhərrəmov universitetdə növbəti islahatlara start verildiyini bildirib. Universitetdən AzadlıqRadiosuna bildirilib ki, hüquq, beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültələrinin tələbələrindən rektorluğa daxil olan şikayətlərə əsasən vəzifədən kənarlaşdırılanlar və ciddi xəbərdarlıq alanlar var. İşdə buraxdıqları ciddi nöqsanlara görə kafedra müdirləri Rəisə Dünyamalıyeva, Sədiyar Zeynalov vəzifələrindən azad ediliblər, professor Kamil Səlimova isə son xəbərdarlıqla şiddətli töhmət verilib.**

Həmçinin BDU-nun kadrlar şöbəsinin rəisi Rüstəm Əhmədov eyni səbəblə vəzifəsindən azad edilib. Vəzifədən kənarlaşdırılanlar sırasında hüquq fakültəsinin dekanı professor Firudin Səməndərov da var. BDU-nun keçmiş rektoru, professor Firudin Səməndərov isə AzadlıqRadiosunun bu barədə suallarını cavablandırarkən antikorrupsiya prosesi fonunda vəzifədən kənarlaşdırılmasından təəssüf edir.

*- Firudin müəllim, islahatlar adı ilə keçirilən tədbirdə sizinlə bağlı qəbul olunan qərarı nə dərəcədə ədalətli sayırsınız?*

-Mən Universitetlə bağlı bir şey deyə bilmərəm. Çünki buranın işçisiyəm. Amma mətbuatın bunu korrupsiya ilə əlaqələndirməsi ilə də qətiyyən razı deyiləm. Mən ömrümün 45 ilini universitetdə tədrislə məşğul olmuşam. Amma heç kəs, bir tələbə belə, deyə bilməz ki, ona qarşı təmənnalı yanaşmışam. Mən adını təmiz qoruyub saxlayan yeganə adamlardanam və bununla fəxr edirəm. İndi nə edim ki, kimsə istəməyən məni götürüb mətbuatda bunun əksinə işarə edən şeylər verib.

*- Hər halda bir fərd olaraq hesab edirsiniz ki, sizi rüşvət, korrupsiya kimi məsələlərdə ittiham etmək olmaz?*

- Əlbəttə, məni belə şeylərdə ittiham eləmək mümkün deyil. Bir az əvvəl auditoriyada idim. Dərsin başa çatdığını bildirən zəngə az qalmış tələbələrdən biri ayağa qalxıb dedi ki, «Firudin müəllim, biz mətbuatda gedən söz-söhbətlərə inanmırıq. Siz müqəddəs adamsınız və biz sizi sevirik». Məni auditoriyadan gurultulu alqışlarla yola saldılar. Heç vaxt mənim boğazımdan rüşvət keçməyib. Nəinki boğazımdan, heç xəyalımdan keçməyib rüşvət. Üzr istəyirəm, mən pul yığan olsaydım, belə dilənçi vəziyyətində yaşamazdım. Nə isə... Çox xətrimə dəyildi. Universitetin rəhbərliyi də xətrimə dəydi. Axı məni tanıyırlar bunlar. Nə isə... Amma BDU-nun verdiyi məlumatda rüşvət, korrupsiya məsələsi yoxdur. Bunu mətbuat işçiləri özləri uydurublar.

*- Amma hər halda bu islahat adlandırılan prosesin fonunda adamlar cəzalandırılır. Və bu sırada sizin də adınız var.*

- Axı üzr istəyirəm, islahat bir qədər dərindən başlamalıdır. Axı bu qara camaat elə həmişə döyüləndi də. Rüşvətdən, korrupsiyadan söhbət gedirsə, bu ancaq yuxarıda oturan vəzifəli şəxslərlə bağlı məsələdir. Hər şeyi qara camaata bağlamaq düzgün deyil axı. Nə isə....

***İlqar Rəsul***

# 7 əsgər nədən öldü?



**Fevralın 20-də 7 Azərbaycan hərbçisi həlak olub. Müdafiə Nazirliyi və Hərbi Prokurorluğun birgə yaydığı məlumata görə, hadisə hərbi hissələrin birində ağır cinayət törədilməsi nəticəsində baş verib. Məlumatda bildirilir ki, Müdafiə Nazirliyi və Hərbi Prokurorluğun əməkdaşları birgə təhqiqat üçün hadisə yerinə ezam ediliblər. Artıq Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin iki və daha çox şəxsi qəsdən öldürmə (120.2.7) maddəsi ilə cinayət işi başlanılıb.**

**«EŞİTMİŞİK Kİ, ORA HÜCUM OLUB»**

Ölənlərdən birinin –Ağcabədi rayonu Hindarxı qəsəbə sakini, 1992-ci il təvəllüdlü Əhməd Hüseynovun əmisi Ehtiram Hüseynov AzadlıqRadiosuna bildirib ki, onun eşitdiyinə görə hadisə hücum nəticəsində baş verib: *«Biz ancaq onu eşitmişik ki, ora hücum olunub, 7 əsgər şəhid olub. Atışmada bizim uşaq da ölüb. Başqa heç nə bilmirik».*

Ehtiram Hüseynovla danışanda mərhumun cənazəsi hələ qəsəbəyə gətirilməmişdi. O deyirdi ki, dövlət bütün işləri özü həll edir, xəbər veriblər ki, cənazə artıq yola salınıb, gözləsinlər.

Hərbi hissədən adının çəkilməsini istəməyən bir zabit isə AzadlıqRadiosuna baş verənlərə səbəb kimi zorlanma amilini göstərib. Zabitin deməsinə görə, əsgərlər yığışıb öz yoldaşlarından birini zorlayıblar. O da silah əlinə keçən kimi əvvəl onları öldürüb, sonra da özünü vurub. Ancaq hüquq-mühafizə orqanlarının yaydığı ilkin açıqlamalarda hadisənin səbəbi kimi hər hansı versiyadan bəhs edilməyib. Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini, Orduya İctimai Nəzarət Komitəsinin üzvü Aydın Mirzəzadə isə «Media forum» saytına deyib ki, orduda belə hadisələr ara-sıra olur. Hərbçilər döyüş postunda üzbəüz dayanıblar. Baş verən bu hadisənin yeganə səbəbi də psixoloji gərginlikdir.




Üzeyir Cəfərov

Keçmiş hərbiçi Üzeyir Cəfərov isə güman edir ki, hadisə əsgərlər arasında qarşılıqlı nizamnamə tələblərinin pozulması nəticəsində baş verib. Onun fikrincə, bütün bunların səbəbi isə orduda cəzasızlıq mühitinin hökm sürməsi və baş verən hadisələrlə bağlı aparılan araşdırmaların həqiqi nəticələrinin cəmiyyətdən gizlədilməsidir.

*«Bu hadisə baş verən hərbi birləşmədə bir müddət əvvəl də analoji hadisə baş vermişdi. Daşkəsəndə və ondan da əvvəl Seyfəli poliqonunda. Eyni vaxtda bir neçə ailə belə itkilərə məruz qalmışdı. Həmin vaxt o hərbi birləşmənin komandiri vaxtında cəzalandırılsaydı, bu gün 7 əsgər itirməzdi. Sadəcə olaraq, dünyasını dəyişmiş əsgərlərin çağırış tarixlərinə və təvəllüdlərinə baxdıqda aydın görünür ki, hadisə 1991 və 1992-ci illərdə doğulmuş, 2010-cu ildə hərbi xidmətə çağırılmış əsgərlər arasında münasibətlərin pozulması nəticəsində baş verib».*

**DEPUTATLAR 7 ƏSGƏRİN ÖLÜMÜ HAQDA**

Son 6 ildə Azərbaycan Ordusunda itkilərin sayı 500-ə çatır. Bunun 300-dən artığı qeyri-döyüş şəraitində baş verib. Bu rəqəmi Milli Məclisin fevralın 22-də keçirilən iclasında hakimiyyət yönlü Ana Vətən Partiyasından olan deputat Zahid Oruc səsləndirib. O deyib ki, dövlət başçısı yanında Silahlı Qüvvələrə Nəzarət Qrupu artıq özünün işləkliyini sübut etməlidir.

Fevralın 20-də orduda 7 əsgərin ölümünə başqa deputatlar da münasibət bildiriblər. Hakim Yeni Azərbaycan Partiyasından olan deputat Siyavuş Novruzov Zahid Orucun bu 500 rəqəmini haradan aldığını bilmədiyini deyib.

İqbal Ağazadə isə bildirib ki, martın 15-də hökumətin hesabatı zamanı müdafiə naziri də gəlib hesabat verməlidir. Çünki bu, orduda ilk hadisə deyil.

***İlqar Rəsul***

# Gözlənilən bir faciənin tarixçəsi...



**«Əsirlikdən qayıdan bəzi xocalılar sonradan intihar ediblər»**

Xocalı faciəsindən 17 il keçir. Faciənin canlı şahidləri deyirlər ki, 1992-ci il fevralın 25-də Dağlıq Qarabağdakı erməni silahlı qüvvələri və Müstəqil Dövlətlər Birliyinin tabeçiliyində olan 366-cı alayın hərbi birləşmələri Xocalı şəhərinə üç istiqamətdən hücuma keçərək onu yandırıb talan ediblər. Şəhərdə qalıb onu müdafiə etməyə çalışan bütün könüllülər məhv edilib. Qaçıb Ağdam şəhərinə sığınmaq istəyən dinc sakinlər isə elə yoldaca kütləvi qırğına məruz qalıblar:

*- Gəldik meşəyə. Orada bir yol açıq idi. Dəhliz kimi saxlamışdılar. Çıxdıq bu yola. Projektorları yandırdılar. BTR-lər əhalini iki hissəyə böldü. Bir hissə Ağdam istiqamətində qaldı, o biri hissə isə Xocalı istiqamətində. Qırdıqlarını qırdılar, qırmadıqlarını da əsir götürdülər...*

Bunu isə həmin vaxtlar Xocalıda tibb bacısı işləyən Səidə Ələkbərova deyir. O, hazırda ailəsi ilə birlikdə Pirşağıdakı «Qızılqum» sanatoriyasında məskunlaşıb. Deməsinə görə, Xocalı faciəsində 30-a yaxın qohumunu itirib. Onun özü isə həmin gün əsir düşüb.

*Səidə Ələkbərovanın, digər şahidlərin dedikləri, məlumatlı adamların faciə haqda söylədikləri Babək Bəkirin xüsusi reportajında.*

**AzadliqRadiosu.az saytında oxuyun.**

# Минобороны Армении о гонке вооружений в регионе



Сейран Оганян

*Министр обороны Армении Сейран Оганян заявил во вторник, что 2010 год - "беспрецедентный в плане оснащения армянских вооруженных сил вооружением и военной техникой", передает Радио Азатутюн. По его словам, Азербайджан пытается навязать Армении гонку вооружений, и армянская сторона «делает все» для решения этого вопроса. 20 декабря прошлого года министерство обороны официально подтвердило, что вооруженные силы Армении обладают сверхточными зенитно-ракетными комплексами С-300.*

Отвечая на вопрос Радио Азатутюн, что планируется сделать в текущем году в плане приобретения вооружений, министр сказал: «В 2011 году расширение боевых возможностей будет иметь продолжительный характер, не меньше, чем в 2010 году. Давайте не будем говорить о цифрах».

По словам Сейрана Оганяна, «сегодня противник получает достойный отпор, и мы стараемся выступать на передовой в роли диктующей стороны». Министр обороны Армении затронул также тему расследования случаев гибели солдат в армии.

Ванадзорский офис Хельсинкской Гражданской Ассамблеи опубликовал статистику смертей в армии Армении за 2010 год. По утверждению организации, за прошедший год в армии произошли 42 случая смерти, из которых только по 10 случаям министерство обороны распространило официальные сообщения.

# Семейка Каддафи

**Для мировой общественности только сейчас прояснилось, что, придя в 27-летнем возрасте после переворота в 1969 году к власти, Муаммар Каддафи за 42 года превратил Ливию в в гигантский коммерческий холдинг. В карманы детей Муаммара Каддафи проложен "денежный поток", измеряемый миллиардами долларов ежегодного дохода национальной нефтяной компании.**

**В ЧЬИХ РУКАХ "КЛАПАН"?**

У Каддафи 1 сын от первой жены и семь – от второй. Человек, которого рассматривают, как "наследного принца", что является наиболее важной причиной ссоры между братьями – это второй сын Сейф уль-Ислам.

Он держит в руках контроль над нефтяным сектором при помощи своей подставной компании " One-Nine Group". Дочь Каддафи Айше имеет тесные связи в энергетическом и стрительном секторах. Другой сын - Мухаммед контролирует телекоммуникационный сектор, в том числе и Интернет.

**ДЕТИ ПОЛКОВНИКА**

Мухаммад: сын Каддафи от первого брака. Имеет степень доктора технических наук. Он президент Ливийского олимпийского комитета, а также начальник Управления Почты и Телекоммуникациями. Именно он дал поручение отключить Интернет и телефонную связь во время протестов в Ливии.

Сейф уль-Ислам: выпускник знаменитой Лондонская школы экономики, расположенной в столице Британии. В данный момент выполняет роль активного пресс-секретаря своего отца. Его первой «работой» стала угроза о том, что «если протесты не прекратятся, то придется скорбить о сотнях тысячах». Запад рассматривал Сейф уль-Ислама, как "наиболее разумного наследника" Каддафи. Он также президент Международного Фонда Благотворительности и Развития имени Каддафи. Сейф уль-Ислам был объектом критики со стороны консерваторов за страсть к женщинам и вечеринкам. Сообщается, что за исполнение четырех песен на карибском острове Сейнт-Бартис в 2009 году Сейф уль-Ислам якобы заплатил американской певице Мерайя Кэри $1 миллион. Год спустя его гостями были Usher и Beyonce.

Мутаасым: Советник Каддафи по национальной безопасности. Сопровождает отца во время его поездок, в особенности по Африке. Выполняет функции менеджера по связям с общественностью.

Сейди: был «футболистом» в Италии в 2003-2007 годах. Хоть и немного выходил на зеленое поле, но все же числился в итальянских клубах "Сампдория", "Удинезе", «Перуджа» и "Ювентус". Итальянский тренер Франческо Сколио был даже уволен за то, что не выпускал на поле Сейди Каддафи. В итоге, он был назначен «главой» города Бенгази, но «не потянул» и убежал в столицу - Триполи.



Муаммар Каддафи

Хамис: консерватор и владелец высокого чина в армии. Мировая общественность обвиняет его в многочисленных преступлениях при поддержке предполагаемых наемников в городе Эль-Бейда.

Ганнибал: судя по документам WikiLeaks, на государственные деньги для Ганнибала создана морская транспортная компания. Он - наиболее проблематичный сын Каддафи. Из-за поведения Ганнибала, как плейбоя и ведущего полную удовольствиями жизнь дебошира, были даже прерваны дипотношения со Швейцарией.

Айше: единственная дочь Каддафи. У нее звание генерал-лейтенанта. Была посредником между Ливией и структурами Европейского союза. До того, как начала покрывать голову, Айше подражала внешностью немецким моделям, за что и получила прозвище «Ливийская Клаудия Шиффер». Айше – самый любимый ребенок Муаммара Каддафи. У нее есть широкие интерсы в энергетическом и строительном секторах страны.

# Посол Брайза - о беседе с Алиевым



Мэтью Брайза

**Только приступив к исполнению обязанностей посла США, Мэтью Брайза воплотил в жизнь первые изменения. По его словам, постарался улучшить координацию действий дабы исполнители смежных обязанностей не повторялись в своей работе. Да и в интервью РадиоАзадлыг Брайза говорит, что главной заботой менеджера является создание механизма нормальных отношей между сотрудниками.**

**КАРАБАХ**

Что касается дипломатической деятельности, по словам Брайзы, нет ничего важнее, чем оказать помощь Минской группе в вопросах безопасности в процессе Карабахского урегулирования.

**ЭНЕРГЕТИКА**

Посол США верит, что этот год станет определяющим для компаний и стран, задействованных в проекте Южного Коридора по доставке каспийского газа в Европу. И добавляет:

«Еще одна тема не терпит отлагательств. Это работа по либерализации политической жизни, экономики и общества, а также реформ в стране».

**ПРАВА ЧЕЛОВЕКА**

На вопрос о том, обсудил ли посол США на встрече с президентом Алиевым вопрос политзаключенных, Брайза дал такой ответ::

"Я не имею права рассказывать все, о чем я говорил с президентом, и это касается бесед с президентом любой страны. Но могу сказать, что вопросы такого рода всегда занимали важное место в диалоге с властями страны и будут занимать. Свобода прессы играют очень важную роль в любых целях нашего присутствия здесь".

Посол США в Азербайджане в интервью РадиоАзадлыг говорил о Карабахском урегулировании, Арабских революциях, депешах в Wikileaks, борьбе с коррупцией, правах человека, демократии и американо-азербайджанских отношениях.

***Хадиджа Исмайлова***

# Михаил Горбачев: "Я старался везде избегать крови...

**Первый и единственный президент СССР Михаил Горбачев дал интервью Радио Свобода, где выразил свое мнение о периоде развала Советского Союза, нынешней политической ситуации и о возможности повторение "египетского сценария" в России.**

- Михаил Сергеевич, Вы не подозреваете, что многие лидеры советских республик в то время - не только Ельцин – не очень хотели сохранить СССР?

- Но ведь было ясно - девять республик хотели сохранить Союз. Это значит, что все остальные уже присоединились бы. Вот сейчас говорят, что есть проект создания «объединенного экономического пространства четырех» - три славянские республики и Казахстан. Это ж означает 80 процентов потенциала Советского Союза... Все остальные присоединились бы, как и сейчас - они нуждаются в том, чтобы сотрудничество было.

- Что вас отстановило против применения силы ради сохранения СССР – армия или..?

- Бескровие...

- Значит Вы не воспользовались силой потому, что у Вас ее не было или все-таки не хотели?

- Я, конечно, не хотел. С самого начала. Это было мое кредо. Я старался везде избегать крови. Тем более, применения армии. Даже там, где она выходила для того, чтобы разъединить противостоящие стороны, для того, чтобы не подавлять, а просто стабилизировать ситуацию, всегда все оборачивалось гибелью людей. Так было и в Баку...

...Потом, ребята из «Альфы», мне принесли книжку, они ее издали – и там все описано. Все в тетради было написано – что делать и т.д. Все делалось за моей спиной. Это, вообще говоря, худший, даже, вариант, чем я бы дал согласие. И они нарушили бы его. А это делалось, и я не знал.

- Существует мнение, что "золото КПСС", в свое время ушло в фирмы, учрежденные КГБ в разных странах мира. Потом эти компании были приватизированы людьми, близкими к спецслужбам. Именно поэтому среди богатых людей так много выходцев из этих структур…

- По-моему, олигархи и миллиардеры появились у нас в результате известной "прихватизации". Впрочем, я не исключаю, что где-то что-то и спецслужбы припрятали. Но вот интересный факт. Когда президентом был Ельцин, он нанял одну американскую фирму за 5 миллионов долларов, они поработали и нашли счета новой номенклатуры, кажется, десятка два человек были в этом списке.

- А у сегодняшней власти, на ваш взгляд, нет бизнес-интересов?



Горбачев в своем офисе, 11 февраля 2011

- Думаю, что есть. Случайно что ли так вырос вывоз капитала за границу? Прячут деньги, прячут в офшорах. Но бенефициар-то остается. И у нас тут он сейчас правит…

- Вам не кажется, что подобный политический режим может закончиться так же, как в Египте?

- Еще и похлеще может заканчиваются.

- Похоже, что политическая ситуация в России изменится нескоро…

- Откуда ты знаешь? Не бери на себя много.

- Я предполагаю…

- Предполагать можешь. Ты свободный человек, можешь предполагать.

- А на что вы рассчитываете?

- Вот Ленина когда-то спросили журналисты: "Когда же все-таки будет у вас революция, господин Ленин?" И он сказал: "Это дело будущих поколений". Шел январь 17-го года. А уже в феврале произошла революция. Вот так.

***Радио Свобода***
***Людмила Телень***

# ABŞ dövlət katibinin müavini Bakıda nələri dedi?


James B. Steinberg

**Azərbaycana səfərə gələn ABŞ dövlət katibinin müavini James B. Steinberg fevralın 24-də Azərbaycan prezidenti və vətəndaş cəmiyyətinin nümayəndələriylə görüşüb. Cənab Steinberg İlham Əliyevlə görüşdən öncə bildirib ki, "görüş iki prezidentin və həmçinin dövlət katibiylə İlham Əliyevin görüşlərinin davamıdır».**

James Steinberg:

**«BİZ İSTƏYİRİK Kİ...»**

ABŞ rəsmisi Azərbaycan prezidentiylə demokratiya, insan haqları və antikorrupsiya məsələlərini müzakirə etdiklərini də söylədi: *«Biz bu məsələlərlə bağlı həm prezident Əliyevlə, həm hökumətlə müntəzəm görüşlər keçirmişik. Biz istəyirik ki, bütün bu fəaliyyətlər sonda Azərbaycanda tolerant cəmiyyətin yaranmasına gətirsin. Cəmiyyətdəki bütün vətəndaşların fəal iştirak edəcəyi bir şərait yaransın. Bundan başqa, biz son antikorrupsiya təşəbbüslərini çox alqışlayırıq və hesab edirik ki, bu, müsbət təşəbbüsdür. Biz Azərbaycanda güclü vətəndaş cəmiyyətinin yaradılmasında maraqlıyıq. Bundan başqa, biz istəyirik ki, Azərbaycanın enerji sahəsindəki uğurları davam etsin. İqtisadiyyat təkcə enerji resurslarına əsaslanmamalı, iqtisadiyyat şaxələndirilməlidir. Azərbaycan vətəndaşları üçün bu şərait yaradılmalıdır».*

**«TƏRƏFLƏR ÇEVİKLİK VƏ UYARLILIQ GÖSTƏRMƏLİDİRLƏR»**

Cənab Steinberg prezidentlə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını da müzakirə edəcək. O, İlham Əliyevin münaqişənin həlliylə bağlı fikrini öyrənəcək, həmçinin müzakirə edəcəklər ki, prosesi necə irəli aparmaq olar. ABŞ rəsmisinin sözlərinə görə, tərəflər bu məsələdə çeviklik və uyarlılıq göstərməlidirlər.

**«ABŞ MESAJ VERƏCƏK Kİ, ŞANS VAR»**

«Turan» İnformasiya Agentliyinin eksperti Zəfər Quliyev deyir ki, Azərbay-


Zəfər Quliyev

canla ciddi enerji layihələri reallaşdıran ABŞ Azərbaycanda sabitliyin pozulmasında maraqlı deyil. Amma bu da var ki, reallıqlar dəyişir. ABŞ-ın indiki administrasiyası da Azərbaycanın əvvəlki daxili siyasətini dəstəkləmir: *«ABŞ tək Azərbaycana yox, bir çox ölkələrə çatdırmaq istəyir ki, Yaxın Şərqdəki hadisələrdən sığortalanmağın bir yolu var. Hakimiyyət başında olanlar özləri demokratik islahatlara başlamalıdırlar. Korrupsiya ilə real mübarizəyə başlamalıdırlar. Artıq görüntü yaratmaq, bu məsələləri uzatmaq bu hakimiyyətlərin özləri üçün təhlükəlidir. Azərbaycana növbəti dəfə çatdırılacaq ki, inqilabi proseslərdən qurtarmaq üçün şans var. Bu da o deməkdir ki, hakimiyyət islahatlara başlamalıdır».*

***Şahnaz Bəylərqızı***

# Steinberg hüquq müdafiəçilərindən nəyi soruşub?


Leyla Yunus

**ABŞ dövlət katibinin birinci müavini Azərbaycanda vətəndaş cəmiyyətinin üzvləri ilə görüşüb. Bu həftə «Panorama»nın qonaqları James Steinberglə görüşdə iştirak etmiş hüquq müdafiəçiləri Leyla Yunus və Əvəz Həsənovdur.**

**«BU, KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİN İMİTASİYASIDIR»**

Leyla Yunus: *«Görüşdə cənab Steinberg bizdən soruşdu ki, siz prezidentin başladığı korrupsiyaya qarşı kampaniyanın nəticə verəcəyinə inanırsınızmı? Mən dedim ki, yox. Mənim fikrimcə, necə ki, bu illər ərzində demokratiyanın imitasiyası yaradılıb, eləcə də bu, korrupsiyaya qarşı mübarizənin imitasiyasıdır. Prezident xalqa müraciət etdi ki, rüşvət və başqa hallarla üzləşdiyiniz təqdirdə bizə məlumat verin. Sülh və Demokratiya İnstitutu nə qədər belə müraciətlər edib, bir cavab yoxdur. Hansı ki, belə şikayətlər var ki, neft şirkəti xüsusi bir şəxsin hesabına pul köçürüb. Həmin şəxsin əlilə insanlar zor gücünə öz evlərindən çıxarılırlar...».*

**«QARABAĞ DANIŞIQLARINDA VƏTƏNDAŞ CƏMİYYƏTİ FƏAL OLMALIDIR»**

Əvəz Həsənov: *«Mən görüşdə əsasən Qarabağ münaqişəsindən bəhs etdim. Bilirsiniz ki, Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi prosesi dalana dirənib. Mənin çıxışım bu vəziyyətdə vətəndaş cəmiyyətinin rolunu artırmağın vacibliyinə yönəlmişdi. Siyasi partiyalar, vətəndaş cəmiyyətinin digər strukturları, bütünlükdə xalq fəal olmasa, hakimiyyətlər də bu münaqişənin həllinə tələsməyəcəklər. Yəni qeyd elədim ki, danışıqlarda vətəndaş cəmiyyətinin fəallığı olmalıdır...».*


Əvəz Həsənov

**«İŞGƏNCƏLƏRLƏ ƏLAQƏDAR ƏTRAFLI DANIŞDIM...»**

Leyla Yunus deyir ki, Steinberg görüş iştirakçılarına bir çox suallar ünvanlayıb. Məsələn, Azərbaycan məhkəmələri necə işləyir, sadalanan problemlərin aradan qaldırılması yollarını necə görürlər və s.: *«Mən də ətraflı danışdım ki, Azərbaycanda insan hüquqları pozulur. İşgəncələrlə əlaqədar ətraflı danışdım. Azərbaycanda məhkəmə işlərini. Cabbar Savalanın tutulması yenə də onu göstərir ki, gənclərə qarşı repressiyalar baş alıb gedir. Azərbaycanda insan hüquqlarının pozulmasında ən birinci yeri tutan isə mülkiyyət hüquqlarıdır. Bunları danışdıq».*

***Babək Bəkir***

# YAP-çı deputat: «Yüksək vəzifəlilər də cəzalandırılacaqlar»


Kamilə Əliyeva

**Milli Məclisin fevralın 22-də keçirilən iclasında hakim Yeni Azərbaycan Partiyasından olan deputat Kamilə Əliyeva bildirib ki, bu gün Azərbaycanda korrupsiya ilə bağlı geniş mübarizə işləri aparılır. Gizlətməli deyilik, bəzi nazirlik, komitə və idarə rəhbərlikləri özləri rüşvət alır. Bu da Azərbaycanın iqtisadi cəhətdən irəli getməsinə mane olur, həmçinin vətəndaşlarımızın hüquqlarının nazirlər və komitə sədrləri səviyyəsində pozulmasına gətirib çıxarır. Mediaforum.az saytının həmin gün yaydığı məlumata görə, deputat bəzi nazirlərin rüşvətxorluğa görə tabeliyində olanları, sadəcə, işdən çıxartmaqla kifayətlənməsini qənaətbəxş saymır. Bu və digər məsələlərlə bağlı deputat Kamilə Əliyevanın AzadlıqRadiosuna müsahibəsini təqdim edirik:**

### RÜŞVƏT ALANLAR DAHA CİDDİ CƏZALANDIRILMALIDIR

**-Kamilə xanım, nazirlərin, komitə sədrlərinin rüşvət aldığını demisiniz, amma onlar korrupsiya, rüşvətxorluğa qarşı addımlar atılması ilə bağlı yığıncaqlar keçirdirlər. Onda nazirlər, komitə sədrləri bu tədbirləri niyə təşkil edirlər?**

- Yox. Mən demədim ki, komitə sədrləri, nazirlər rüşvət alırlar. Mən demək istədim ki, televizorda xəbərlərdən müşahidə edirik ki, nazirlər, komitə sədrləri kimlərisə rüşvətə görə işdən azad edirlər. Mən də bildirdim ki, Cinayət Məcəlləsinin hansı maddəsində yazılıb ki, rüşvət almaq yalnız işdən azad olunma ilə cəzalandırılsın. Yəni mən hesab edirəm ki, belələrinə qarşı daha ciddi tədbirlər görülməlidir. Buna görə də Cinayət Məcəlləsində müvafiq dəyişikliklər edilməlidir. Yəni fikrim belə idi ki, daha ciddi tədbirlər görülsə, bunun effekti də yüksək olar.

**-Necə düşünürsünüz, rüşvətdə, korrupsiyada əli olanlar yalnız işdən çıxardılanlardır, ya çıxardanların da bu işdə əli ola bilər?**

-Əlbəttə, tək bunlar deyil ki. Ola bilsin bundan sonra hakim partiya üzvləri, eləcə də digər insanlar arasında da belələri olacaq. Görürsünüz ki, bu məsələ birbaşa cənab prezidentin nəzarətindədir. Özü də mən deməzdim ki, bu proses müvəqqəti xarakter daşıyır və hansısa dövrü əhatə edəcək. Bu iş davam etdiriləcək və ola bilsin ki, bundan sonra daha yüksək vəzifə sahibləri də belə işlə bağlı cəzalandırılacaqlar.

### NAZİRLƏR, KOMİTƏ SƏDRLƏRİ ÖZLƏRİNDƏ MƏSULİYYƏT HİSS ETSİNLƏR

**-Təklif edirsiniz ki, nazirlər, komitə sədrləri Milli Məclisə bu məsələlərlə bağlı hesabat versinlər. Sizcə, verəcəklər, ya yox?**

- Onların da hesabat verəcəyini dəqiq deyə bilmərəm. Əslində, məncə, təklifim pis təklif deyil. Qoy nazirlər, komitə sədrləri, digər rəhbər orqanlarda calışanlar da özlərində məsuliyyət hiss etsinlər və gəlib Milli Məclisdə, deputatlar qarşısında korrupsiya və rüşvətxorluğa qarşı hansı yollarla mübarizə aparacaqları, hansı üsullarından istifadə edəcəkləri, gələcəkdə görəcəkləri işlərlə bağlı hesabat versinlər. Amma gəlib-gəlməyəcəkləri barədə mən onların yerinə cavab verə bilmərəm.

*Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Kamilə Əliyeva 111 saylı Zaqatala-Balakən seçki dairəsindən deputatdır.*

***İlqar Rəsul***


Misir və Tunis prezidentləri gələcəkdən hələ xəbərsizdilər

# Vətəndə ölmək haqqı

**Misirlilər Mübarəkin istefasını bayram edir. Deyilənə görə, Misirin eks-prezidenti komaya yaxın bir vəziyyətdə, Tunisin keçmiş rəhbəri Bel Əli isə komanın lap içindədir. Güman ki, kosmetik əməliyyatlar nəticəsində zahirən gənc görünən bu qocaman eks-prezidentlərin səhhətinə hakimiyyətin itirilməsindən daha çox, Qərb ölkələrindəki hesab və əmlaklarının dondurulması təsir edib. Söz yox, möhtərəm eks-prezidentlər Şərq ölkələri və banklarında da xırda-para varidata sahib olmamış olmazlar, amma bunlara da güvənməyə dəyməz – möhtərəmlərə hər an «ata» bilərlər.**

### ADİDƏN DƏ ADİ BİR HÜQUQ

İnqilabın başlanğıcında Mübarək dedi ki, ölkəsini tərk etmək niyyəti yoxdur, bütün ömrünü Misirdə keçirib, elə burada da ölmək istəyir. Öz vətənində ölmək – bütün dünyada milyardlarla kasıb insan üçün adidən adi bir şeydir. Adətən ölüm belələrini vaxtsız, qəfildən yaxalayır və çox vaxt zorakı olur. Belə insanlar vətəndə ölməyi xoşbəxtlik saymır, ən adi bir şey kimi baxırlar buna. Uşaqları ac-yalavac gəzən çoxuşaqlı kasıb ailədə dünyaya yeni bir uşağın gəlməsi xoşbəxtlik sayılmadığı kimi. Halbuki çox varlı və imkanlı, lakin sonsuz ailələr var ki, dünyaya övlad gətirmək üçün hər şeydən keçərlər.

### AYILSA, BAŞA DÜŞSƏ DƏ...

Misir və Tunis hadisələri belə bir məntiqi nəticəyə gətirib çıxarır ki, öz vətənində ölmək şərəfinə də layiq olmaq lazımdır. Bu haqqı da qazanmaq lazımdır, çünki bəzən belə adidən də adi bir şey də müşkülə çevrilir, xüsusən prezidentlər üçün.

**Yazının tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

# «Torpağı satır, pulunu qoyur cibinə...»



**AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edən Masallı rayonunun Qızılağac kənd sakinləri bildiriblər ki, bələdiyyə sədri Mina Quliyeva bələdiyyənin fondunda olan əraziləri sata-sata gedir. Bir sözlə, 7 ildir ki, Mina Quliyevanın kənddə qılıncının dalı da kəsir, qabağı da. Bələdiyyə üzvləri də, kənd sakinləri də bələdiyyə sədrinin əlindən dad çəkirlər.**

**QIZILAĞACDA BƏLƏDİYYƏNİN QURU ADI VAR**

Kənd sakini Əlizaman Həsənov danışır: *«Tək mən yox, bütün kənd ondan narazıdır, bu vaxta kimi kənd ondan xeyir görməyib. Bu adam bələdiyyə üzvləri ilə işləmir, özbaşına, bildiyini edir. Torpaq satır, pulunu alır qoyur cibinə, sənəd vermir».*

Əlizaman Həsənov deyir ki, bələdiyyə sədri ona satdığı həyətyanı sahəyə də indiyə qədər sənəd verməyib. Deyir ki, bələdiyyə sədri kənddəki müqəddəs ocaqlardan yığılan nəzir-niyazı da mənimsəyir: *«Aparır özünə bab bir adam oturdur orda, ordan yığılan pulları da özünə götürür. Məhkəmələrə, prezidentə müraciət eləmişik, qəzetlər yazıb, heç bir tədbir görən yoxdur. Kənddə hektarlarla tut ağacı sahəsi var, O torpaqlar satış üçün deyil, gəlib yoxlaya da bilərlər, həyətyanı sahələrə bölüb satıb. Keçən il 150-yə yaxın adamın örüş yerini ferma yeri kimi bir iş adamına satmışdı. Qalxdıq ayağa, iki ay mübarizə aparmaqla prosesi dayandırdıq».*

**«TORPAQ VERİR, SƏNƏDİ YOX»**

Başqa bir kənd sakini Fazil Abbasov deyir ki, 2003-cü ildən kənd bələdiyyəsinə sədrlik edən Mina Quliyeva islahatdan gizlədilmiş min hektara qədər ərazini öz şəxsi torpağı kimi istifadə edir. Onun sözlərinə görə, prezidentin 23 oktyabr 2007-ci il tarixli sərəncamı ilə bələdiyyələr tərəfindən alqı-satqı yolu ilə torpaqların verilməsi dayandırılıb. Fazil Abbasov:

**«AÇIB-AĞARDANI POLİSLƏ HƏDƏLƏYİR»**

*«Qızılağacda bələdiyyə yoxdur, sovetlər dönəmindəki kolxoz var və onun sədri Mina Quliyeva var».* Bunu isə bələdiyyə üzvü olduğunu, lakin iki ildir ki, bələdiyyəyə yaxın düşə bilmədiyini iddia edən kənd sakini Əzizağa Məlikov deyir. Onun sözlərinə görə, bələdiyyə sədri onu bələdiyyənin inzibati binasına belə yaxın buraxmır. Deməsinə görə, bələdiyyə sədrinin qanunsuz əməllərlə məşğul olması məsələsini açıb-ağardanda isə sədrin tapşırığı ilə onu polisə çəkirlər, barəsində cinayət işi başlanacağı ilə hədələyirlər. Əzizağa Məlikov deyir ki, bələdiyyə sədri Mina Quliyeva 2005-ci ildən bir dəfə də olsun bələdiyyə üzvlərinin iclasını çağırmayıb.

**«YAXŞI BƏLƏDİYYƏ SƏDRİ DEYİLƏMSƏ... »**

Bələdiyyə sədri Mina Quliyeva isə ittihamları qəbul etmir: *«Fazil Abbasov gediş-gəliş yolunun üstündə ev tikmişdi, hansı ki, ona ev tikmək üçün başqa yerdən torpaq sahəsi ayrılmışdı. Ancaq o, gediş-gəliş yolunun üstünü zəbt etmişdi. Biz də ona məktubla müraciət etmişdik ki, evi qeyri-qanuni torpaqda tikmisiniz. Sizə ayrılan torpaq qalıb kənarda, gediş-gəliş yolunun üstündə ev tikirsiniz. Rayon İcra Hakimiyyətinin memarlıq şöbəsi, torpaq və xəritəçəkmə şöbəsi ona satılan torpağa rəy vermişdilər, ev tikdiyi torpağa yox. Həmin torpağa rəy verilmədiyindən o da narazılığını bu şəkildə bildirir».*

- Narazılıq ondandır ki, siz dövlət torpağı hesab olunan, ərazisi hektarlarla ölçülən tut ağaclığı sahələrini ayrı-ayrı adamlara satmısınız və sənədləşdirməmisiniz...

- Bələdiyyə torpağını satmamışdan əvvəl torpağın qiyməti müəyyənləşir. Əgər orda qeyri-qanuni nə isə olsaydı, yəqin ki, həmin illərdən bu tərəfə olan qərarlar ləğv olunardı. Bu adamlar mənə qarşı qərəzlidilər. Əgər doğrudan da mən



işləyə bilməyən bələdiyyə sədriyəmsə, nəyə görə mənim vaxtım tamam olur, təkrar seçkiyə gedirəm və məni təkrar bələdiyyə sədri seçirlər.

Elə kənd sakini Əlizaman Həsənov da deyir ki, Mina Quliyevanı sədr kreslosuna oturdan kimdirsə, bu kreslonu tərpətməyə heç kəsin cürəti çatmır:

- 833 səs yığan qaldı kənarda, 220 səs bu yığmışdı, siyahıda 16-17-ci adam idi, hansısa qüvvələrin əliylə gəldi oturdu yenə orda.

***Esmira Cavadova***

# Ərəb inqilabları Azərbaycana milyardlarla dollar xeyir verir



**Ərəb dünyasındakı inqilablar və ən son Liviya olayları səbəbindən neftin qiyməti artır. Yüksək neft qiymətləri isə Azərbaycan üçün əlavə gəlir deməkdir.**

Fevralın 23-də dünya birjalarında neftin bir bareli 108 dolları da aşaraq son iki il yarımın rekord göstəricisindən cəmi 1 dollar aşağıdır. Azərbaycanın dövlət büdcəsində 2011-ci ildə neftin qiyməti 60 dollar həddində proqnozlaşdırılıb. Belə getsə, Azərbaycan neftin satışından təqribən 80 faiz çox gəlir əldə edə bilər. Başqa sözlə proqnozlaşdırılan 11 milyard əvəzinə büdcəyə 19 milyard dollar daxil ola bilər. Liviyadakı üsyan digər neft ixracatçısı ölkələrinə də artıq qazanmaq imkanı yaradır. Məsələn, Rusiyaya. Ancaq bütün bu gəlirləin reallaşması üçün birjalarda neftin qiymətinin indiki səviyyədə qalması lazımdır. Bəs qalacaqmı?

**Yazının tam mətni AzadliqRadiosu.az saytında.**

***İlkin Məmmədov***

# İctimai Palata parlamentə alternativ yaradır?



**«Hər kəs ölkədə inqilab gözləyir, amma bunu başqalarının etməsini istəyir. Bunu isə bizlərdən başqa edən olmayacaq. Ona görə də İctimai Palata mitinqlərin, etiraz aksiyalarının keçirilməsi haqda qərar qəbul etməlidir». Bu fikri İctimai Palatanın fevralın 26-da keçirilən iclasında Müsavat başqanı İsa Qəmbər səsləndirib.**

İclasda bildirilib ki, əvvəlcə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət göndəriləcək, müraciətləri qəbul edilməzsə, şəhərin mərkəzində aksiyalar keçirəcəklər.

**ALTERNATİV KOMİSSİYALAR...**

İctimai Palata həmçinin Milli Məclisdəki komitələrə alternativ komissiyaların formalaşdırılması haqda qərar qəbul edib. Pənah Hüseyn Təhlükəsizlik və Müdafiə Komissiyasının, Qubad İbadoğlu İqtisadi Siyasət Komissiyasının, Nemət Əliyev Aqrar Siyasət Komissiyasının, Vidadi Mirkamal Regional Təşkilatlanma Komissiyasının, Mirvari Qəhrəmanlı Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının, Ənnağı Hacıbəyli Hüquqi İslahatlar üzrə Komissiyanın, Elşən Mustafayev isə Beynəlxalq Münasibətlər və Əlaqələr Komissiyasının koordinatoru seçilib.

İctimai Palatanın iclasında bu quruma 21 nəfər yeni üzv də seçilib. Palatada Koordinasiya Şurasının tərkibinin genişləndirilməsi ilə bağlı namizədlərin seçim prosesinə etiraz edənlər olub. Müsavat Partiyasından Arif Hacılı bu prosesin qeyri-demokratik keçirildiyini bildirib:

**BURDA DA QEYRİ-DEMOKRATİK SEÇİM?**

*«Biz namizədlər haqda yalnız səsvermə zamanı məlumat ala bilirik. Koordinasiya Şurasına tez-tələsik kimlərinsə seçilməsi normal deyil və mən hesab edirəm ki, bu, qeyri-demokratik seçimdir».* Belə etirazlara baxmayaraq Rauf Arifoğlu, Qənimət Zahid, Şahvələd Çobanoğlu, Ədalət Yusifli, Köçər Nağıyev, Zəfər Quliyev və Mehriban Vəzir Koordinasiya Şurasına üzv seçilib. Bununla da Koordinasiya Şurasının üzvlərinin sayı 16 nəfər olub.

***Nüşabə Fətullayeva***

# Büdcə hesabına pullu yol



**Azərbaycanda ilk pullu yol tikilir - «Bakı-Rusiya sərhədi». 2011-ci ildə beton yolun 59 kilometrlik hissəsi çəkilməlidir. Fevralın 22-də «Azəryolservis » Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov mətbuata belə deyib: «Bu yol pullu olacaq. Biz bu yol boyunca yerli əhəmiyyətli iki yol da çəkmək istəyirik. Çünki bu yolu pullu etmək niyyətindəyik». Cavid Qurbanov həmin iki yolun nə zaman çəkiləcəyini, pullu yolun nə vaxt istifadəyə veriləcəyini deməyib. Ekspertlərsə diqqəti ona yönəldirlər ki, ödənişli yolun alternativi də eyni vaxtda tikilməlidir. Pullu yolla getmək istəməyənlərin seçimi olmalıdır.**

Bununla bağlı Nəqliyyat Nazirliyindən məlumat ala bilmədik. Eləcə də ekspertlərin verdiyi başqa suallara münasibət öyrənə bilmədik. Bəs mütəxəssislər nədən narahatdırlar?

**«BU, ABSURDDUR»**

İqtisadçı ekspert Natiq Cəfərlini çaşdıran başqa şeydi. Beton yolun tikintisi büdcədən maliyyələşirsə, nuyə ödənişli olur? Ekspertə görə, bu, sadəcə, absurddur: *«Əgər bunu dövlət idarəsi – «Azəryolservis» tikirsə, necə ola bilər ki, xidmət pullu olsun?».*

Natiq Cəfərli deyir ki, bu işə xarici investorlar cəlb olunsaydı və ya yolu yerli kommersiya qurumlari tiksələriydi, onun pullu olması başadüşülən olardı.

**«TİKİLƏ BİLƏR, AMMA BİR ŞƏRTLƏ»**

Başqa bir iqtisadçı Zöhrab İsmayılsa deyir ki, dövlət büdcəsi hesabına çəkilən yol ödənişli ola bilər: *«Amma bir şərtlə, sonradan həmin pul büdcəyə qayıtsın. Alternativ yol varsa, həmin yol gəlir versin. Yox, əgər həmin gəlir «Azəryolservis»in hesabına gedəcəksə, onda lazım deyil».*

**«DÖVLƏT HESABINA ÖDƏNİŞLİ YOL SALINA BİLƏR»**

Yeni Azərbaycan Partiyasının üzvü, iqtisadçı Nazim Məmmədov deyir ki, dövlət hesabına ödənişli yol salına bilər. Belə nümunələr də var: *«Dövlət qoyduğu vəsaiti geri götürmək üçün belə addım ata bilər. Bu ənənə qonşu Türkiyədə var. İkinci Boğaz körpüsü dövlət vəsaiti hesabına qurulub. Beynəlxalq Valyuta Fondundan alınan vəsaiti geri qaytarmaq üçün pullu edilib».*

Amma Nazim Məmmədov deyir ki, Azərbaycanda dövlət qurumları bəzən başqa ölkələrin nümunələrini tələm-tələsik tətbiq etməyə, pilot layihələr gerçəkləşdirməyə çalışırlar. Halbuki bundan öncə həmin layihələrin iqtisadi nəticələri öyrənilməli, nə dərəcədə faydalı, məqsədyönlü olub-olmadığı araşdırılmalıdır.

**DÜNYADA NECƏDİR?**

Dünyada ilk dəfə pullu yol praktikasından İngiltərədə istifadə olunub. Sakinlər




yolların təmirinə pul vermək istəmirlər. Parlament də yolları təmir etdirmək, onları saxlamaq üçün 1663-cü ildə qərar verir: yolçulardan haqq alınsın. 1707-ci ildən isə yolların saxlanmasına görə cavabdehlik «yol magistralları»nın öhdəsinə qoyulur.

***Şahnaz Bəylərqızı***

# Roland Kobya: «Hakimiyyətlə konstruktiv dialoq apardıqda işlər alınır»



Roland Kobya

**AzadlıqRadiosunun «İşdən sonra» verilişinin qonağı Avropa İttifaqının Bakıdakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobyadır. Səfir söhbətə dinləyiciləri azərbaycanca salamlamaqla başladı.**

**- Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər bir neçə mərhələni aşıb. Hazırda Assosiasiya sazişinin bağlanması ilə bağlı danışıqlar gedir. Danışıqların vəziyyətini necə qiymətləndirirsiniz?**

- Biz son tədbir olaraq bir neçə aydır ki, Assosiasiya sazişi ilə bağlı danışıqlara başlamışıq. Bu da Avropa İttifaqının üçüncü dövlətə təklif edə biləcəyi ən dərin razılaşma, əməkdaşlıq formuludur. Bu, çox geniş ənənəvi əməkdaşlıq sahələrini əhatə edir. Bura siyasət, iqtisadiyyat, sosial, ticarət, enerji, viza sisteminin liberallaşdırılması daxildir. Azərbaycanda yanlış bir fikir var ki, Avropa İttifaqı Azərbaycanda yalnız enerji məsələləri ilə maraqlanır. Avropa İttifaqının Azərbaycandakı gündəliyi genişdir və sadaladığım bütün sahələri əhatə edir. Assosiasiya sazişi ətrafında yeni başlamış danışıqlar da bunu sübut edir. Son məqsəd hər iki tərəf arasında siyasi və iqtisadi inteqrasiyanı daha da dərinləşdirmək, Azərbaycanı Avropa İttifaqı dəyərlərinə daha da yaxınlaşdırmaq, Azərbaycanı 500 milyon alıcısı olan böyük bazara cəlb etməkdir. Bu bazar çox sabitdir və qayda-qanuna əsaslanır.

**- «Şərq Tərəfdaşlığı» proqramı təkcə keçmiş sovet ölkələrini deyil, həm də Şimali Afrika ölkələrini də ehtiva edir. Tunis, Misir və başqa ölkələrə də siyasət eyni proqram çərçivəsində müəyyənləşirdi. Bunun Misirdə və Tunisdə baş verən hadisələrin fonunda hansısa dəyişikliyə uğraması ehtimalı varmı?**

- Əvvəlcə bir balaca düzəliş etmək istəyərdim. «Şərq Tərəfdaşlığı» sırf 6 qonşuluqda olan ölkələri əhatə edir. Bunlar Ukrayna, Belarus, Moldova və üç Cənubi Qafqaz ölkəsidir. Ancaq Avropa Qonşuluq Siyasətinə Şimali Afrika ölkələri də daxildir. Avropa İttifaqının mühüm siyasi çərçivəsi var ki, bizim qonşuluğumuzda baş verən siyasi hadisələrin də buna müəyyən təsiri olur. Bu dəyişikliklər bizim siyasətə və bizim apardığımız dialoqa daxil edilməlidir və orada öz əksini tapmalıdır. Burda məsələ hansısa bir dəyişiklik aparmaq deyil. Əksinə, bizim əlimizdə hər bir vasitə var ki, ölkədəki siyasi prosesləri dəstəkləyək, onlara yardımçı olaq. Burda dəyişməyə heç bir ehtiyac yoxdur. Bizim əlimizdə imzalanmış sazişlərimiz var ki, bu ölkəyə yardım göstərək. Bunlar həddən artıq çox mühüm tədbirlərdir. Biz tələsməməliyik. Bir neçə həftədir bu hadisələr baş verib. Bizə vaxt lazımdır ki, buna tam baxaq görək orada nələr baş verir. Bundan sonra bu ölkələrlə apardığımız dialoqda hər hansı dəyişikliklər etmək mümkün olacaqdır. Bunlar siyasi və sosial hadisələrdir. Bunlar əhalinin özünü ifadə etmə vasitələridir. Biz bu ölkələrlə daim dialoq qururuq. Biz bilməliyik ki, bu ölkələrdə xalqın fikrini və sabitliyi necə qarşılaya bilərik.

**«BİZ GÖRDÜYÜMÜZ İŞLƏRİ REKLAM ETMİRİK»**

**Müsahibənin davamını AzadliqRadiosu.az saytında oxuyun.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***



# Cəlilabadda sel

Son 5 gündə yağan aramsız yağışlar və dağ çaylarında suyun səviyyəsinin qalxması Cəlilabad rayonunda on hektarla əkin sahəsini su altında qoyub. Çökək ərazilərdə yerləşən fərdi yaşayış evlərinin həyətlərini su basıb. Sel sularının qarşısının alınması üçün hazırda texnikanın və canlı qüvvənin köməyi ilə rayon ərazisində tədbirlər davam edir.

Cəlilabad Rayon Fövqəladə Hallar Komissiyasının sədri Asif Əzizov AzadlıqRadisouna bildirib ki, Mişarçay üzərindəki bəndin dağılmasının qarşısı alınıb: *«Kisələrə qum doldu-ruldu, ağır texnikadan istifadə etdik ki, çayın seli yolu yumasın. Əgər yolu yusaydı böyük fəsad ola bilərdi».*

Asif Əzizov deyib ki, insan tələfatı yoxdur, mal-qaraya da ziyan dəyməyib.

***Kəbiran Dilavərli***

# Gömrükdə 8 manat rüsum əvəzinə 100 manat?

- Kağızın qiyməti 100 manatdır, bilirsiniz?

*- 100 niyə? 8 manat deyildimi?*

- 8 manat deyirlər. Amma 100 manatdır.

*- Niyə belə baha? Nə vaxtdan qiymət qalxıb?*

- Yeni ildən qalxıb. 25 manat qalxıb, hələ biz yaxşıyıq. Başqa yerlərdə 125 manat, 116 manatdır.

*- Bu, 100 manat elədi, mənə də zəhmət haqqı verərsinizsə, verin.*

- Nə zəhmət haqqı, elə 100 manatın içindədir hamısı.

*- Yox vallah, burdan mənə heç nə çatmır, hamısı yuxarı gedir.*

Bu dialoq Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə bitişik Bakı Baş Gömrük İdarəsində sahibkar Ədalət Abbasovla broker arasında gedən söhbətdəndir. Fevralın 16-da baş tutan bu söhbət rüsumu 8 manat olan gömrük bəyannaməsinə 100 manat alınması, bu məbləğin hər hansı sənəddə qeyd olunmaması haqdadır.

**Durna Səfərlinin bu reportajını AzadliqRadiosu.az saytında oxuyun.**

# Artur Rasizadənin ana dili problemi


Tofiq Hacıyev

**Fevralın 21-i Beynəlxalq Ana Dili Günüdür. AzadlıqRadiosunda türkoloq, filologiya elmləri doktoru, professor Tofiq Hacıyevlə Azərbaycan dilinin bu günündən danışırıq.**

**«KOMİSSİYA DİLƏ FORMAL NƏZARƏT EDİR»**

**- Tofiq bəy, ondan başlayaq ki, Müstəqil Azərbaycanın iyirmi yaşı tamamlanır. Demək olarmı ki, ana dili də basqılardan azaddır?**

- Azərbaycan dilinin sovet dövründə ancaq yuxarı səviyyədə qarşısı alınırdı. Yoxsa ana dili orta məktəblərdə tədris olunurdu, yüksək səviyyəli dərsliklər vardı. İndi bu şeylər yoxdur. İndi, sadəcə, ana dilinin işlənməsi üçün azadlıq var. Dövlət tribunalarında, bütün məclislərdə prezident də, nazirlər də ana dilində danışır. Bu, yaxşıdır. Hətta ana dilini qoruyan dövlət təşkilatı var. Nazirlər Kabinetində Dil Komissiyası yaradılıb. Təşəbbüskarı da mən olmuşam. O dil komissiyası mətbuatda, dövlət idarələrində dilə nəzarət edir. Amma bu nəzarət formaldır.

**- Yənī faydası yoxdur?**

- Heç bir faydası yoxdur. Reklamların dili çox pintidir. Dilin azadlığını elə bil kim kefi necə istəyir, elə də danışsın kimi başa düşürlər. Dil məcrasından çıxıb, qrammatik qaydalara laqeydlik var.

**DİL KOMİSSİYASINA ARTUR RASİZADƏ RƏHBƏRLİK EDİR**

**- Komissiyanın rəhbəri kimdir?**

- Nazirlər Kabinetinin sədri Artur Rasizadə. Amma praktiki ona baş nazirin müavini Elçin rəhbərlik edir. Çox təəssüf ki, bu işdə dövlətin də günahı var. Qanunu verib, amma onun icrasına nəzarət etmir.

**- Azərbaycanın rəsmi, siyasi dilinə qiymətiniz neçədir? Məsələn, üzvü olduğunuz Dil Komissiyasının sədri Artur Rasizadənin danışığına həmişə irad olub.**

- Onun danışığına yox, danışmamağına irad tutulub, hər yerdə dinməzcə oturur. Bir dəfə «KVN»çilər dedilər ki, Nazirlər Kabineti nitqlə bağlı üç turdan ibarət müsabiqə elan edib. Birinci tur, ikinci və Artur. Heydər Əliyev qəşş elədi. İndi o mənada onun danışığına irad yoxdur.

**«ŞEYXÜLİSLAMIN NİTQİ TƏZƏ DİL AÇAN KÖRPƏNİN DANIŞMASINA OXŞADI»**

**- Dövlət başçısının, nazirlərin danışığı sizi dilçi kimi qane edirmi?**

- Məni İlham Əliyevin danışığı təmin edir. Yazıram, altından da qol çəkirəm. Bir neçə il öncə Bibiheybət məscidinin açılışında o da danışdı, şeyxülislam da. Şeyxülislamın nitqi təzə dil açan körpənin danışmasına oxşadı. Amma İlham Əliyev hiss edirsən ki, müəllim tutub öyrənib. Məktəbdə rusca oxuyub, sonra da rusca, ingiliscə, fransızca danışıb. Onun danışığından razıyam. Kaş Rasizadə onun yarısı qədər danışa biləydi.

**- Sizin bir davanız da vardı. Ana dilinin adıyla bağlı. Azərbaycan dili, yoxsa türk dili, Tofiq müəllim?**

- Yox, dövlətin qanunu var artıq. Amma biz həm də Azərbaycan türkcəsi deyirik. Dərslikdə də yazırıq. Daha buna etiraz edən yoxdur. Dövlət də etiraz etmir. Qadağa yoxdur.

**«ÖZÜMÜZÜ ÖLDÜRMƏSƏK DƏ OLAR»**

**- Onda Ana Dili Gününüz mübarək!**

- Sağ olun. Ana dili gözəl gündür. 1952-ci il fevralın 21-də Banqladeşdə ingilislər onların ana dilini boğduğuna görə 23 nəfər intihar etdi. Sonra dünya bu günü seçdi, ana dili xatirinə. Özümüzü öldürməsək də olar, dilimizi sevsək bəsimizdir.

*Şahnaz Bəylərqızı*

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Seyran Səxavət: **"Oksigen tükənsə hamı məhv olar, bircə azərbaycanlılardan başqa"**


Nigar Köçərli: **"Bir məşhur yazıçı bizə zəng vurub özünü tapşırıb"**



**"Quqark" romanı əsasında film çəkilə bilər**


**Pərviz Cəbrayılın Rəşad Məcidin açıqlamasına ironik münasibəti**


**Avstraliya dövləti yazarlara necə dəstək olur?**

# Qəddafi biznes imperiyasını necə qurub?

**Liviyanın lideri Qəddafi və onun ailə üzvləri ölkə xaricində çoxlu şirkətlərin sahibi kimi də tanınır. Liviyanın dövlət fondu adından (fondun rəsmi adı «Libyan Arab Foreign İnvestment Company LAFİCO»dur) sərmayələr yatırmaqla Qəddafilər dünya üzrə yüz milyonlarla dollar dəyəri olan kapitala malikdir.Qərb mətbuatında dərc olunan məlumatlar əsasında Qəddafilərin tam və ya qismən sahib olduğu şirkətlər şəbəkəsinin mənzərəsini yaratmağa çalışdıq.**

**ƏN BÖYÜK TƏRƏFDAŞLARI İTALİYADA VƏ YAXIN ŞƏRQDƏDİR**

Liviyanın əsas yatırımları İtaliyadadır. Ölkə Banca diRomada (bank) – 5 faiz, Fiat avtomobil konsernində – 2 faiz, İtaliyanın ən böyük bankı UniCredit bankında – 7.35 faiz paya malikdir. Bundan başqa, Liviya Kuwait və Abu Dabi ilə birlikdə Yaxın Şərqin maliyyə maqnatı olan Arab Banking Corp.-unda 33, İordaniyanın Zara İnvestment Holdingdə isə 13 faizlik sahiblik hüququna malikdir. Qəddafinin mülkləri arasında Yaxın Şərqdə və Avropada kifayət qədər geniş hotellər şəbəkəsi olan Corinthia Group göstərilir. Bu qrupun 47 faizlik payının ünvanı Liviyadır.




**DİGƏR XARİCİ YATIRIMLAR**

Liviya dünyanın ən böyük kərpiç istehsalçısı olan Wienerberger şirkətində 10 faizlik paya sahibdir. Digər xarici şirkətlərə olan yatırımlar arasında Qərb mətbuatında aşağıdakı ünvanların adı çəkilir: İngiltərəinin Pearson şirkəti (3 faiz), Türkiyənin Emlak Konut GYO (5 faiz), Rusiyanın aliminium istehsalçısı UC Rusal (1 faiz). Və nəhayət, Şotlandiyanın Royal Bank of Scotland (RBC) adı hallansa da, bu bankın kapital iştirakında Liviyanın payı haqda məlumata rast gəlmədik.



Qəddafi

**QƏDDAFİ bp-ni DƏ ALMAQ İSTƏYİB**

Ötən ilin yayında, Meksika körfəzindəki qəzadan sonra ağır vəziyyətə düşən bp şirkəti çıxış yollarından biri kimi Liviya kapitalını da nəzərdən keçirirdi. *«Qiyməti yarıbayarı azalan bp cəlbedici görünür. Əminəm ki, bu şirkət yenidən ayağa qalxacaq, ona görə bu addımı atmağı bizim investorlara məsləhət görəcəm»*. Bu sözləri Liviya neft şirkətinin rəhbəri ötən ilin yayındakı müsahibəsində deyirdi. Liviyanın bp-yə olan marağının səbəblərindən biri kimi tərəflər arasında neft sahəsindəki sıx əməkdaşlıq idi.

**NEFT ÖLKƏSİ LİVİYA**

Liviyanin iqtisadiyyatı tamamilə neft sənayesinə bağlı vəziyyətdədir. Ölkənin eksport gəlirinin 95 faizi neft və neft məhsullarının satışından əldə edilir. Liviyanın dövlət neft şirkəti olan National Oil Corporation (NOC) gündəlik olaraq 1.72 milyon barel neft istehsal edir. Liviya dünyanın varlı ölkələr siyahısında 74-cü yerdə olsa da, onun iqtisadi inkişaf göstəriciləri birbaşa olaraq neftin dünya bazarlarındakı qiymətindən asılıdır. Böyük enerji resurslarına malik Liviyada kasıb təbəqənin neft gəlirlərindən heç və ya olduqca az qazancı olur. Bundan başqa, ölkədəki işsizliyin 30 faiz həddinə çatdığı ehtimal olunur.

# 14 azərbaycanlı Liviyadan evakuasiya olunub

Daha 14 Azərbaycan vətəndaşı Ukraynaya məxsus təyyarə ilə Liviyadan evakuasiya olunub. Bu barədə Ukrayna Xarici İşlər Nazirliyinin rəsmi internet saytında məlumat yerləşdirilib. Bildirilir ki, Ukraynanın «Boeing-737» təyyarəsi Liviya paytaxtı Tripolidən Kiyevə 94 nəfər gətirib. Onlar arasında 14 Azərbaycan vətəndaşı olub. Bir neçə gün öncə Ukraynaya məxsus təyyarə ilə Liviyadan 10 Azərbaycan vətəndaşı evakuasiya olunmuşdu.

# Obama Qəddafiyə qarşı sanksiyaları imzalayıb



Birləşmiş Ştatlar Liviyaya qarşı birtərəfli qaydada sanksiyalar tətbiq edib. ABŞ prezidenti Barak Obamanın bəyanatında deyilir ki, sanksiyalar Müəmmar Qəddafi rejiminə qarşı yönəlib, xalqa qarşı yox. Qəddafinin və onun ətrafının bank hesabları dondurulacaq, Liviya hakimiyyəti ilə bank əməliyyatlarına və bu ölkəyə hərbi təyinatlı məhsulların satışına qadağa qoyulacaq. NATO-nun Baş katibi Anders Foq Rasmussen isə deyib ki, onlar Liviyadakı vəziyyəti diqqətlə izləyir. Amma o, hərbi müdaxiləni istisna edir.

# «NATO-nun planı Liviyanı işğal etməkdir»



Fidel Kastro

*«ABŞ tezliklə Liviyanın zəngin neft yataqlarını öz nəzarətinə götürmək üçün NATO-ya göstəriş verəcək ki, Liviyaya müdaxilə etsin».* Bu sözləri keçmiş Kuba lideri Fidel Kastro son günlər Liviyada baş verən hadisələrlə bağlı yazdığı məktubunda deyir. Reuters agentliyinin məlumatına görə, Fidel Kastro Liviya prezidenti Müəmmar Qəddafinin ölkədən qaçmayacağını da bildirib: *«Mən, Liviya liderinin ölkəsini tərk edəcəyini düşünmürəm»*

Kastro: *«Səmimi bir insan hər vaxt, dünyanın harasında olursa-olsun, hər cür ədalətsizliyə qarşıdır. Ən pis iş isə Liviya xalqına qarşı cinayət törətməyə hazırlaşan NATO qoşunları haqqında səssiz qalmaqdır».*

***Turxan Kərimov***

# Dünya ölkələrinin etiraz potensialı siyahısı



«The Wall Street Journal» qəzetinin bloqunda dünya ölkələrinin etiraz potensialı indeksi (Introducing the Revolting Index) yer alıb. Siyahını tərtib edən müəllif etiraz ola biləcək ölkələrdə iqtisadi və sosial vəziyyətləri nəzərə aldığını qeyd edir. Siyahı hazırlanarkən BMT-nin İnkişaf Proqramının İnsan İnkişafı İndeksi və «Transparency International»ın korrupsiya cədvəlinə istinad edilir. Siyahıda etirazların baş verə biləcəyi ehtimal olunan ölkələrin adları qeyd olunur. 85 ölkə arasında Azərbaycan 10-cu yerdədir. İlk onluqda yer alan ölkələr:

1. Keniya
2. Kamerun
3. Pakistan
4. Nigeriya
5. İndoneziya
6. Filippin
7. Qvatemala
8. Mərakeş
9. İordaniya
10. Azərbaycan

# Уроженцы Азербайджана среди богачей России



Вахид Алекберов

Сразу четыре уроженца Азербайджана вошли в список сотни самых богатых людей России 2011 года по версии журнала «Финанс», передает Turan. Это - Вахид Алекберов, Араз Агаларов, Фархад Ахмедов и Тельман Исмаилов.

Президент компании «ЛУКойл» Вахид Алекберов расположился на десятом месте в списке богачей России. По оценке журнала, его капитал составляет 10,9 млрд долларов.

На 71-ом месте в рейтинге расположился Араз Агаларов. Журнал оценивает его капитал в 1,5 млрд долларов. Агаларов является президентом Crocus Group.



Араз Агаларов

На 76-ом месте в рейтинге Фархад Ахмедов. Его состояние оценивается в 1,4 млрд долларов. Ахмедов - основатель компании Tansley Trading (правопреемником которой стала Farco Group), которая проводила торговые операции на рынке нефти и нефтепродуктов и поставки оборудования предприятиям "Газпрома".

На 97-ом месте с 1,1 млрд долларов расположился Тельман Исмаилов. В 1989 году зарегистрировал группу АСТ, президентом которой является по сегодняшний день.



Тельман Исмаилов

Владелец Новолипецкого металлургического комбината Владимир Лисин возглавил данный рейтинг. Журнал оценивает его состояние в $28,3 млрд. Второе место в этом году занял президент группы «Онэксим» Михаил Прохоров, состояние которого оценивается в $22,7 млрд. На третье место, сместив Романа Абрамовича, вышел совладелец «Металлоинвеста» Алишер Усманов с $19,9 млрд.

# AzadlıqRadiosunda verilişlər:

*Unutmayın:* Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar










# “Simsiz teleqraf”

**TUALETDƏ ELAN**




22.01.2011. Yükləyən: Anonim

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

**Kanalın adı**

## $13^{\circ}$ Hot Bird

**Radio Free Europe/Radio Liberty**

**POLARIZATION:** Vertical
**FREQ:** 12.226 GHZ
**FEC:** 3/4
**NEW SYMBOL RATE:** 27.5 MS/s

## 24 saat

TÜRKSAT $42^{0}$ E

**Kanalın adı**

**Azadliq VOA Azeri**

**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s




## İşdən sonra

## «İşdən sonra»nı dinləyin

İş günləri: **$17^{:00}$-$19^{:00}$**

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz